**AZƏRBAYCAN RESPUBLİKASININ**
**ELMİ TƏDQİQATLARIN ƏLAQƏLƏNDİRİLMƏSİ ŞURASI**

**QƏRAR**

№ 1/5

Bakı şəhəri 17 yanvar 2019-cu il

27 mart ─ Elm gününün keçirilməsi haqqında

Son illər ölkədə elmin nüfuzunun yüksəldilməsi, cəmiyyətin inkişafında elmin əhəmiyyətinin artırılması və elmi fəaliyyətin stimullaşdırılması istiqamətində bir sıra dövlət əhəmiyyətli tədbirlər həyata keçirilir. Bu sahədə qəbul edilmiş mühüm qərarlardan biri də dövlət başçısının Azərbaycan Respublikasında "Elm günü"nün təsis edilməsi haqqında 09 aprel 2018-ci il tarixli Sərəncamı olmuşdur. Həmin sərəncamda hər il martın 27-sinin Azərbaycanda "Elm günü" kimi qeyd edilməsi qərara alınmışdır. 2019-cu il 27 mart tarixində ilk dəfə olaraq ölkədə "Elm günü" qeyd ediləcəkdir. Həmin əlamətdar günün yüksək səviyyədə keçirilməsi məqsədilə Azərbaycan Respublikasının Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurası **QƏRARA ALIR:**

1. 27 mart ─ Elm gününün keçirilməsinə dair Tədbirlər planı təsdiq edilsin (əlavə olunur).
2. AMEA-nın akademik-katibi, akademik Rasim Əliquliyevə tapşırılsın ki, müvafiq strukturları cəlb etməklə nəzərdə tutulan tədbirlərin icrası təmin edilsin.
3. Qərarın icrasına nəzarət Azərbaycan Respublikası Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasının sədr müavini, AMEA-nın vitse-prezidenti, akademik İbrahim Quliyevə həvalə edilsin.

Şuranın sədri akademik Akif Əlizadə

Şuranın məsul katibi AMEA-nın müxbir üzvü
Əminağa Sadıqov

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ APARATI PROTOKOL ŞÖBƏSİ